

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblǝgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 100 (23.742)

*4 iyun 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/6 kilovoltluq "Binəqədi" yarımstansiyasının açılışında iştirak edib.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə məlumat verib. Bildirilib ki, 1952-ci ildə inşa edilən "Binəqədi" yarımstansiyası istismar müddətini iki dəfə keçmişdi. İndi bu yarımstansiya müasir avtomatika sistemləri ilə təchiz edilərək tam yenidən qurulub.

Qeyd edək ki, "Binəqədi" yarımstansiyasının yenidən qurulması həm də ona görə əhəmiyyətlidir ki, o, paytaxtın Binəqədi, Nərimanov, Nəsimi rayonlarının dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasında mühüm rol oynayır.

Diqqətə çatdırılıb ki, Abşeron Regional Elektrik Şəbəkəsinin bu ərazidə yerləşən inzibati binası da yenidən qurulub, "Azərenerji" ASC-nin xüsusi təyinatlı maşın-mexanizmləri üçün nəqliyyat sahəsi və onlara təmir xidməti göstərəcək sahələr yaradılıb. Müxtəlif relyeflərdə, ağır şəraitdə işləyə biləcək xüsusi təyinatlı maşınlar alınıb.

Prezident İlham Əliyev "Binəqədi" yarımstansiyasını işə salıb.

Dövlətimizin başçısına işğaldan azad edilən Suqovuşan qəsəbəsində yenidən qurulması tam başa çatan, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik Su Elektrik stansiyalarında görülən işlər barədə də məlumat verilib.



## Milli Qurtuluş Gününün bəhrələri – müasir Şərur şəhəri

***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır"***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün hər bir yaşayış məntəqəsində genişmiqyaslı quruculuq işləri aparılır, şəhər və rayon mərkəzləri müasirləşir. İnkişafa qovuşan bölgələrdən biri də Şərur rayonudur. Qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası rayonda davamlı sosial-iqtisadi inkişafı təmin etmiş, Şərur şəhərində və kəndlərdə genişmiqyaslı quruculuq işləri aparılmış, yeni inzibati binalar və sosial obyektlər tikilmiş, rahat yollar çəkilmiş, əhalinin rifahı yaxşılaşmışdır.

İyunun 3-də Şərur rayonunda Bayraq Meydanı, Şərur şəhər avtomobil yolları, yeraltı piyada keçidi və yeni yaşayış binası istifadəyə verilmiş, Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün müasir iş şəraiti yaradılmışdır.

## Şərur rayonunda Bayraq Meydanının açılışı olub



Bu gün Azərbaycanın hər yerində dövlət bayrağımız qürurla dalğalanır. Çünki bayraq dövlətlərin müstəqillik və suverenlik rəmzidir.

İyunun 3-də Şərur rayonunda Bayraq Meydanı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

"Hər bir ölkənin müstəqillik rəmzi hesab olunan bayrağı o ölkə üçün müqəddəsdir. Ona görə də müstəqillik, torpaqların qorunması, dövlətçilik uğrunda şəhidlik zirvəsinə ucalanlar da bayrağa bükülür. Şərur rayon ərazisində qurulan bu Bayraq Meydanı da bir neçə gün əvvəl qeyd olunan 28 May – Respublika Günü münasibətilə və şəhidlərimizin əziz xatirəsinə qaldırılır", – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qurğunu işə salmış, üçrəngli dövlət bayrağımız əbədi yüksəkliyə ucalmışdır.



Bildirilmişdir ki, Şərur rayonunda Bayraq Meydanının tikintisinə ötən ilin aprel ayında başlanılmışdır. Bayraq dirəyinin hündürlüyü 36,5, bayrağın eni 8, uzunluğu isə 16 metrdir. Ümumi sahəsi 4 min 795 kvadratmetr olan meydanda geniş abadlıq işləri aparılmış, müasir işıqlandırma sistemi qurulmuş, dekorativ ağac və gül kolları əkilmişdir.

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri Əmir Babayev minnətdarlıq edərək demişdir: "Muxtar respublikanın bütün rayonları kimi, Şərur rayonu da göstərilən diqqət və qayğı sayəsində sürətlə inkişaf edir. Rayonun kəndləri yeni görkəmə qovuşmuş, Şərur şəhəri müasir şəhərlər sırasına daxil olmuşdur. Rayon sakinləri bu inkişafı ulu öndərimiz Heydər Əliyevin inkişaf strategiyasının uğurlu davamı kimi qiymətləndirir. Tarixən xalqımız bayrağa ehtiramla yanaşmışdır. Bütün qələbə və zəfərlərimiz Azərbaycan Bayrağı ilə ifadə olunmuşdur. Bu gün rayonumuzda yaradılan Bayraq Meydanı da gənclərimizin vətənpərvərlik ruhunda böyüməsində böyük əhəmiyyətə malik olacaqdır".

Ali Məclisin Sədri Bayraq Meydanında müxtəlif tədbirlərin keçirilməsi, abadlığa və təmizliyə diqqət edilməsi, yaşıllıqlara qulluq göstərilməsi barədə tapşırıqlar vermişdir.

## Şərur şəhər avtomobil yolları yenidən qurulub

Avtomobil yollarının yenidən qurulması muxtar respublikada iqtisadiyyatın inkişafına töhfə verməklə yanaşı, həm də insanların rahatlığına xidmət edir. Ölkə başçısı cənab İlham Əliyevin Naxçıvana səfəri zamanı dediyi kimi, ***yollar çox keyfiyyətlə tikilir, bəzi yollar çoxdan istismara verilib, amma buna baxmayaraq, keyfiyyət də yerindədir.***

İyunun 3-də Şərur şəhər avtomobil yolları yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov görülən işlərlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, Naxçıvan-Sədərək magistralından Şərur şəhərinədək, həmçinin şəhərin Heydər Əliyev prospektini və 6 küçəsini əhatə edən 11,2 kilometrlik yolun üzərində 3 su keçidi qoyulmuş, 3 min 300 metr uzunluğunda kanal, 5 min metr uzunluğunda yeraltı elektrik, 8 min



834 metr uzunluğunda rabitə, yaşıllıqlar üçün isə 2 min 985 metr su xətti çəkilmiş, müasir işıqlandırma dirəkləri quraşdırılmışdır. Şəhərin girişində və daxili avtomobil yollarının kənarlarındakı köhnə səkilər və bordürlər yenisi ilə əvəz edilmiş, səkilərdə 96 yerdə məhdud fiziki imkanlılar üçün keçid qoyulmuşdur.

Ali Məclisin Sədri demişdir ki, Şərur muxtar respublikanın ən qədim tarixə malik olan bölgələrindəndir. Şərur şəhəri tarixinin heç bir dönəmində müstəqillik illərində olduğu qədər inkişaf etməmişdir. Bütün bunlar Milli Qurtuluş Gününün bəhrələridir. O gün olmasaydı, bu işlər də həyata keçirilə bilməzdi. Şəhərin yolları su və kanalizasiya sistemləri işlənib tamamilə başa çatdıqdan sonra yenidən quruldu. 11 min 200 metrlik yolun 3 min metri iki, 8 min 200 metri isə dördzolaqlıdır.

*Ardı 2-ci səhifədə*

Bu da imkan verəcək ki, bu yollardan uzun illər sıxlıq olmadan istifadə etmək mümkün olsun.

"Yolların yenidən qurulması abadlığın əsasını təşkil edir", – deyən Ali Məclisin Sədri Şərur rayonunda yeni yolların qurulmasında əməyi olanlara təşəkkürünü bildirmiş, yol kənarında yaşıllıqların artırılması barədə tapşırıq vermişdir.

* * *

Həmin gün Ali Məclisin Sədri Şərur Şəhər Avtovağzal binasının tikintisi ilə də maraqlanmış, müvafiq göstərişlər vermişdir.



## Yeraltı piyada keçidləri təhlükəsizliyə təminatdır





Həmin gün Şərur şəhərində "28 May" və "Nizami" küçələrini birləşdirən yeraltı piyada keçidi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeraltı piyada keçidinin açılışında iştirak etmişdir.

Məlumat verilmişdir ki, uzunluğu 66, eni 2,6, hündürlüyü isə 2,1 metr olan keçidin möhkəmləndirilməsi üçün tunelin yan divarlarına və örtüyünə dəmir-beton qatı verilmiş, membranla izolyasiya olunmuşdur. Keçiddə müasir işıqlandırma sistemi quraşdırılmış, hər iki giriş pilləkəninin üzəri metal konstruksiya ilə örtülmüşdür.

Ali Məclisin Sədri keçiddə təmizliyə riayət olunması barədə tapşırıq vermişdir.

## Yeni yaşayış binası sakinlərin rahatlığına xidmət edəcək





Muxtar respublikada yeni yaşayış binalarının istifadəyə verilməsi məskunlaşmanın artmasının və gənclərin sosial mənzil şəraitinin yaxşılaşdırılmasının göstəricisidir.

İyunun 3-də Şərur şəhərində yeni yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, ümumi sahəsi 6 min 300 kvadratmetr olan yeni yaşayış binasının tikintisinə 2019-cu ilin aprel ayında başlanılmışdır. Zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan binada 40 mənzil vardır. Onlardan 10-nun ümumi sahəsi 75 kvadratmetr olmaqla iki, 20-nin ümumi sahəsi 95 və 102 kvadratmetr olmaqla üç, 10-nun isə ümumi sahəsi 120 kvadratmetr olmaqla dördotaqlıdır. Müasir kommunal şəraitlə təmin olunmuş mənzillər fərdi istilik sistemi ilə qızdırılacaqdır. 2 girişdən ibarət olan binada mərkəzləşdirilmiş anten sistemi və 2 lift quraşdırılmışdır.

Yaşayış binasının zirzəmi qatında yerləşən xidmət mərkəzində qadın gözəllik salonu, bərbərxana, dərzi, məişət, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərəcəkdir. Binanın həyətində də geniş abadlıq işləri aparılmışdır.

## Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün müasir iş şəraiti yaradılıb



Əhalinin sağlamlığının qorunması, yoluxucu xəstəliklərin qarşısının alınması, sanitariya-gigiyenik tədbirlərin təşkili və həyata keçirilməsinə nəzarət muxtar respublikada daim diqqət mərkəzindədir. Bu tədbirlərin davamı kimi Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün hərtərəfli iş şəraiti yaradılıb.

İyunun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini, Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mustafayeva çıxış edərək demişdir ki, muxtar respublikada aparılan ardıcıl əks-epidemik tədbirlər çərçivəsində sanitar-epidemioloji xidmətin fəaliyyəti yenidən qurularaq günün tələbləri səviyyəsinə çatdırılmışdır. İdarəolunan yoluxucu xəstəliklərə qarşı peyvənd işinin təşkili, dezinfeksiya, dezinseksiya, deratizasiya, delarvasiya tədbirlərinin ardıcıl və keyfiyyətlə aparılması insanların sağlam ətraf mühitdə yaşamasını təmin etmişdir. Həmçinin həyata keçirilən ekoloji tədbirlər muxtar respublika ərazisində epidemioloji şəraitin yaxşılaşdırılmasına və əksər yoluxucu xəstəliklərin azalmasına səbəb olmuşdur. Bu sahədə əsas işlər Gigiyena və Epidemiologiya Mərkəzinin, onun yerli qurumlarının üzərinə düşür. Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi tərəfindən cari ilin 5 ayı ərzində 1388 parazitoloji, 666 bakterioloji müayinə aparılmışdır ki, bu da idarəolunan yoluxucu xəstəliklərlə mübarizədə əhəmiyyətli rol oynayır. Zeynəb Mustafayeva göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

Şöbənin parazitoloq köməkçisi Nərmin Əliyeva kollektiv adından minnətdarlıq edərək

*Ardı 3-cü səhifədə*



demişdir: "Ali Məclis Sədrinin rayonumuza hər gəlişi yeni bir müəssisənin təməlinin qoyulması və yeni bir obyektin istifadəyə verilməsi ilə əlamətdar olur. Gigiyena və Epidemiologiya Şöbəsi üçün yeni iş şəraiti yaradılıb. Göstərilən qayğıya cavab olaraq çalışacağıq ki, rayon əhalisinin sağlamlığının qorunması üçün yoluxucu xəstəliklərə qarşı tədbirlərin həyata keçirilməsində və peyvəndləmə işinin aparılmasında daha fəal olaq".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Milli Qurtuluş Gününün bəhrələri olan yeni obyektlərin istifadəyə verilməsi münasibətilə rayon sakinlərini və kollektivi təbrik edərək demişdir: Gigiyena və epidemiologiya bu gün ən vacib sahələrdən biridir. Dünyada yayılan virusun epidemiyadan pandemiyaya çevrilməsi bu sahənin vacibliyini bir daha göstərdi. Muxtar respublikada hələ bir neçə il əvvəl bu istiqamətdə əsaslı işlər görülmüşdü. Lakin dünyada son illər müxtəlif virusların yayılması, xüsusilə mövcud pandemiyanın yaratdığı problemlər bu sahədə yeniliklərin tətbiqini zərurətə çevirdi. Muxtar respublikanın əksər rayonlarında Gigiyena və Epidemiologiya şöbələri üçün yeni iş şəraiti yaradılmış, müasir avtomobillər alınıb verilmişdir. Hazırda Culfa rayonunda və Naxçıvan şəhərində bu sahədə işlər davam etdirilir.

"Yaxşı iş şəraiti yüksək əhval-ruhiyyə və keyfiyyətli iş deməkdir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, əsas məsələ profilaktik tədbirlərin vaxtında görülməsi və gigiyenik qaydalara əməl olunmasıdır. Gigiyena və Epidemiologiya Şöbəsinin kollektivi mütəmadi sanitariya tədbirləri həyata keçirməlidir. Çünki bu tədbirlər xəstəliklərin yayılmamasına, onların vaxtında aşkar olunmasına və qarşısının alınmasına xidmət edir. Yaradılan şərait bundan sonra da muxtar respublikada virus və xəstəliklərin yayılmasının qarşısını almağa imkan verəcəkdir.

Ali Məclisin Sədri kollektivin üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə, əhalinin maarifləndirilməsinə ciddi səy göstərəcəklərinə, muxtar respublikada epidemioloji vəziyyətin daim sabit saxlanacağına əminliyini bildirmişdir.

Məlumat verilmişdir ki, şöbədə müdir,



epidemioloq, entomoloq, parazitoloq, sanitar həkim və digərləri olmaqla, 18 otaq vardır. Burada Gigiyena, Epidemioloji, Dezinfeksiya şöbələri və bakterioloji, parazitoloji, eləcə də ümumi sanitariya laboratoriyaları fəaliyyət göstərəcəkdir. İşin keyfiyyətini artırmaq üçün şöbə nitratometr, südün keyfiyyət analizatoru, radiasiya ölçmək üçün dozimetr, batometr, PH-metr, termohiqrometr, binokulyar mikroskop və digər köməkçi tibbi ləvazimatlar ilə təmin edilmişdir.

Bina istilik sistemi ilə təchiz olunmuş, həyət abadlaşdırılmış, işıqlandırma və suvarma sistemləri çəkilmişdir.

Şöbənin baş həkimi Məhərrəm Qədimov yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri muxtar respublikanın epidemioloji pasportunun hazırlanması, dezinfeksiya tədbirlərinin fasilələrə uyğun aparılması, sanitar-gigiyenik qaydalara əməl olunması və kadr işinə diqqətin artırılması barədə tapşırıqlar vermişdir.

Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsinə dezinfeksiya tədbirlərinin daha keyfiyyətlə icra olunmasında vaxt itkisinin qarşısının alınması, avtomaks və dezinfektantların rahat daşınması üçün 7 nəfərlik işçi heyətinin eyni zamanda istifadə edə biləcəyi "Changan" markalı avtomobil təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihəsi çərçivəsində növbəti təlim



Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Səfirliyinin maliyyələşdirdiyi "İcma Quruculuğu Təşəbbüsləri Proqramı" çərçivəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" layihəsinin icrası ilə bağlı təlimlər davam edir. Növbəti təlim "Sahibkar ol!" mövzusunda keçirilib.

Təlimdən əvvəl Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova muxtar respublikada dövlət qadın siyasəti, bu sahədə görülən işlər və əldə olunan uğurlar haqqında iştirakçılara ətraflı məlumat verib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı muxtar respublikanın rayonlarında aztəminatlı və məhdud fiziki imkanlı qadınlar üçün toxuculuq peşəsinin öyrədilməsi ilə bağlı təlimlər keçirilir, qadınların özünüməşğullularının təmin edilməsi üçün sərgi-satışlar təşkil edilir, qadınların əl işlərinin satılması məqsədilə müxtəlif tədbirlər görülür. Həmçinin muxtar respublikada qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olması, kredit resurslarından, bazar və müxtəlif imkanlardan istifadəsi üçün mikro və makro sahibkar kimi fəaliyyət göstərməsi üçün dövlət tərəfindən dəstək göstərilir ki, bu da öz bəhrəsini verməkdədir.

Ramilə Seyidova əminliyini bildirib ki, bu layihə çərçivəsində keçirilən təlimlərdə iştirakçılar maliyyə savadlılıqlarını artırmaqla öz təsərrüfatlarını və ya məşğul olacaq fəaliyyət sahələrini quracaq, sahibkar olacaqlar.

Layihə çərçivəsində öz biznes-planı ilə fərqlənən 20 nəfər qadına maksimum 500 Amerika Birləşmiş Ştatları dolları məbləğində sərmayə kapitalı veriləcəkdir ki, bu da muxtar respublikada ailə təsərrüfatlarının inkişafına, onların ailə və bizneslərində maliyyə idarəetməsi üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsinə şərait yaradacaqdır.

Qeyd edək ki, layihə çərçivəsində veriləcək sərmayə kapitalının 70 faizi ailə təsərrüfatlarının yaradılmasına, qalan məbləğlər isə qadınların məşğulluqlarının artırılması istiqamətindəki digər sahələrin yaradılması və inkişafına ayrılacaqdır.

Ramilə Seyidova muxtar respublika qadınlarına göstərdiyi diqqət, qayğı və dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova çıxış edərək layihə çərçivəsində keçirilən "Sahibkar ol!" təlimi haqqında layihə iştirakçılarına ətraflı məlumat verib.

Təlim qarşılıqlı diskussiya şəklində keçirilib, qadınlar tərəfindən maraqla qarşılanıb. Təlimin sonunda layihədə iştirak edən qadınlara sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Seminar keçirilib

Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə keçirilən seminarı giriş sözü ilə mərkəzin sədri İsmayıl Qəribli açaraq bildirib ki, keçirilən seminarın məqsədi dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydaları haqqında dövlət orqanlarının səlahiyyətli nümayəndələrinə məlumat verməkdir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1-ci maddəsinə əsasən həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 3 may tarixli 115 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası" təsdiq edilib.

İsmayıl Qəribli bildirib ki, bu qaydaya əsasən dövlət qulluqçusunun cari fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması və həmin imkanlardan səmərəli istifadə edilməsi, dövlət qulluqçusunun peşə səriştəliyini artırmağa stimullaşdırılması, habelə tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi məqsədilə hər il inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyəti qiymətləndirilir. Əvvəlki qaydalardan fərqli olaraq hazırda dövlət qulluqçusu ilin əvvəlində qoyulmuş tapşırıqlar, peşə fəaliyyəti zamanı və iş prosesində bacarıqlarını dəyərləndirmək üçün əsas götürülən meyarlar və əmək intizamına əməletmə vəziyyətinə əsasən qiymətləndirilir.



Daha sonra Dövlət İmtahan Mərkəzinin baş məsləhətçisi Məmməd Babayev slayd vasitəsilə yeni qaydalar haqqında məlumat verib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Aktivlər təqdim olunub



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aprel ayında həyata keçirilmiş özünüməşğulluq tədbirləri çərçivəsində muxtar respublika üzrə 28 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və 13 nəfərin hər birinə 2 baş iribuynuzlu, 7 nəfərin hər birinə 20 baş xırdabuynuzlu, 4 nəfərə minişyerşumlayan aqreqat, 3 nəfərə 10 yeşik arı ailəsi, 1 nəfərə isə miniotbiçən verilib. Özünüməşğulluğu təmin edilmiş şəxslərdən 4 nəfərini şəhid ailəsi, 2 nəfərini müharibə veteranı, 2 nəfərini isə gənclər təşkil edib. Eyni zamanda təsərrüfatlarını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə, 1 nəfər həvəsləndirmə tədbirlərinə cəlb edilib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Tədbirdə çıxış edənlər nazirlik yanında Dövlət Məşğulluq Agentliyinin direktoru Vüsal Süleymanlı və Şahbuz Rayon Məşğulluq Mərkəzinin direktoru Fəraddin Bağırov ötən dövr ərzində proqramın icrası istiqamətində görülən işlərdən danışıb, əldə olunan nəticələrdən bəhs ediblər. Daha sonra aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Biznes Mərkəzində görüş



***Naxçıvan Biznes Mərkəzində "Sahibkarlıq fəaliyyətinin idarə olunmasında mühasibat uçotunun rolu və beynəlxalq standartların tətbiqinin zəruriliyi" mövzusunda seminar-treninq keçirilib.***

Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi və Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətinin dəstəyi ilə keçirilən tədbiri giriş sözü ilə Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova açaraq muxtar respublikada sahibkarlığın inkişafı üçün yaradılan şəraitdən, bu sahədə əldə olunan uğurlardan danışıb.

"Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının aparat rəhbəri Azər Cəfərov çıxışında qeyd edib ki, dövlət qayğısı ilə sahibkarlığın inkişafının yeni mərhələsi qoyulmuşdur. Onun əsas hədəfi, iqtisadi səmərəlilik, məhsulların çeşidinin, keyfiyyətinin və ixrac imkanlarının artırılması, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi, daxili bazarın qorunması və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası əsasında uzunmüddətli perspektivdə muxtar respublikada əldə olunmuş dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

Seminar-treninqdə "Ləzzət Qida Sənaye" MMC-nin baş mühasibi Ramazan Seyidov, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin Hüquqi şəxslərin auditi şöbəsində böyük dövlət vergi müfəttişi İsmayıl Bağırov, Maliyyə Tədris Mərkəzinin əməkdaşı Pərviz Babayev müxtəlif mövzularda məruzə ediblər.

Tədbir müzakirə şəklində davam edib, iştirakçıların sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

# Ərzaq məhsullarının keyfiyyətinə diqqət günün tələbidir

*Yay fəslinin isti günlərini yaşadığımız bir vaxtda əhalinin sağlamlığının qorunması və qida təhlükəsizliyi məsələləri daha böyük aktuallıq kəsb edir. Belə ki, özünəməxsus qayğıları olan bu fəsildə insanlar Günəşin yandırıcı şüaları ilə yanaşı, həm də qida zəhərlənmələrindən qorunmağa məcbur olurlar. Çünki bu fəsildə ərzaq məhsulları daha tez keyfiyyətini itirir və insanların sağlamlığı üçün təhlükə yaradır.*





Qeyd etmək lazımdır ki, yeyinti məhsullarının keyfiyyətinə təsir edən bir çox amillər mövcuddur. Bu baxımdan onların keyfiyyət göstəriciləri dəqiq təyin olunmalı, məhsulların daşınması, lazımi şəraitdə saxlanılması, qablaşdırılması, markalanması, etiketlənməsi zamanı müvafiq dövlət standartlarının və normativ-texniki sənədlərin tələblərinə əməl edilməlidir.

Havaların isinməsi ilə insanların dondurmaya olan tələbatı da artıb. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC tərəfindən 2021-ci ilin ötən dövrü ərzində 12 halda dondurma məhsulundan nümunələr götürülərək laboratoriyada ekspertizadan keçirilib. Aparılan laboratoriya müayinələri zamanı məhsulların keyfiyyət və təhlükəsizlik göstəriciləri normativ-texniki sənədlərin tələblərinə uyğun olub.

İstehlakçıların nəzərinə çatdırmaq istərdik ki, dondurma alarkən mütləq şəkildə qablaşdırmanın üzərində olan etiket məlumatlarını oxumaq lazımdır. Məhsulun istehsal tarixi, yararlılıq müddəti, qida dəyəri göstəriciləri, xüsusilə yağ tərkibi diqqətə alınmalıdır. Dondurmaların digər qida məhsulları ilə bir yerdə saxlanılması tövsiyə edilmir. Çünki digər qidalarla eyni soyuducuda saxlanılması məhsulun orqanoleptik göstəricilərinə (iyi, dadı), keyfiyyətinə təsir etməklə yanaşı, onun tərkibində mikroorqanizmlərin inkişafına da səbəb olur. Nəzərə almaq lazımdır ki, dondurma istehsalında xammal olaraq istifadə edilən süd mikroorqanizmlərin inkişafı üçün əlverişli mühitdir. Bunun üçün də dondurma pasterizasiya olunmuş süddən hazırlanmalı və istehsal edildikdən sonra soyuq zəncir prinsipinə uyğun olaraq saxlanılmalı və daşınmalıdır.

Əgər dondurmanın tamlığı pozularsa və ya istehlak edərkən içərisində buz kristalları müşahidə olunarsa, bu, dondurmanın donunun açıldıqdan sonra təkrar dondurulduğunu göstərir. Həmin məhsulların istehsal tarixi bitməsə belə, istehlakı tövsiyə edilmir. Saxlanma temperaturunun sabitliyi dondurmanın keyfiyyətini təmin edən əsas səbəblərdəndir. Saxlanma temperaturuna riayət etmədikdə bu məhsullarda mikrobioloji proseslər başlayır ki, bu da insan orqanizmi üçün təhlükələrə səbəb olur.

Dondurma təzə qaymaq dadı verməlidir. Hazırlanma texnologiyasında dondurmanın yağlılığını artırmaq üçün standartlara uyğun olaraq kərə yağından istifadə edilməlidir. İstehlak zamanı dondurmanın boğazda acı dad verməsi tərkibinə marqarin və ya bitki mənşəli yağların qatıldığını göstərir. Dondurma məhsulunun keyfiyyəti onun tərkibindən və saxlanma şəraitindən asılıdır.

Daşınma və saxlanma qaydalarına görə dondurma soyudulan avtorefrijeratorlarda və ya digər izotermik nəqliyyat vasitələrində, mövcud nəqliyyat növü üçün qüvvədə olan, tez xarab olan malların daşınması qaydalarına uyğun olaraq daşınır. Daşınma zamanı məhsulun temperaturunun mənfi $12^0$ C-dən yüksək olmaması təmin edilməlidir.

Topdansatış bazalarının və digər müəssisələrin soyuducularında dondurma mənfi $24^0$ C-dən yüksək olmayan temperaturda ən çoxu 1 ay, mənfi $18^0$ C-dən yuxarı olmayan temperaturda ən çoxu 20 sutka, mənfi $12^0$ C-dən yüksək olmayan temperaturda ən çoxu 5 sutka saxlanılmalıdır.

Ticarət şəbəkəsində dondurmanın satış müddəti mənfi $24^0$ C-dən yuxarı olmayan temperaturda 20 sutkadan, mənfi $18^0$ C-dən yuxarı olmayan temperaturda 10 sutkadan və mənfi $12^0$ C-dən yuxarı olmayan temperaturda 2 sutkadan artıq olmamalıdır.

Ev şəraitində dondurmanı mənfi $18^0$ C-dən yuxarı olmayan temperaturda alındığı gündən etibarən ən çoxu 5 sutka saxlamaq məsləhət görülür.

**Çinarə BALAYEVA**
***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşı***

# Yanğın təhlükəsizliyinin təmin edilməsində hamımız əlbir olmalıyıq



Yanğın gözlənilməz hadisə kimi bir çox sahələrdə baş verə bilər. Hər birimiz üçün arzuolunmayan yanğın insanlara çox ciddi ziyan vuracaq amillərə malikdir. İlləriboyu zəhmət çəkərək qurduğumuz evin, evdəki mülkiyyətin, digər avadanlıqların yanaraq məhv olmasını kimsə istəyərmi? Əlbəttə ki, yox. Ona görə də yanğın təhlükəsizliyinin təmin edilməsində həm nazirliyin aidiyyəti qurumlarının, həm də vətəndaşların üzərinə mühüm vəzifələr düşür. Buna görə də nazirlik tərəfindən aparılan maarifləndirmə tədbirləri böyük əhəmiyyət daşıyır.

Bildiyimiz kimi, muxtar respublikamızın iqtisadiyyatında kənd təsərrüfatı aparıcı rola malikdir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi kimi vacib bir vəzifə məhz bu sahə tərəfindən icra olunur.

Qeyd edək ki, bütün sahələrdə olduğu kimi, taxıl və ot biçinində yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır. Unudulmamalıdır ki, kənd təsərrüfatı məhsullarının yanğından qorunması təkcə yanğın təhlükəsizliyi orqanları əməkdaşlarının deyil, həm də kənd təsərrüfatında, o cümlədən fermer kimi çalışan bütün insanların, təsərrüfat başçılarının, müxtəlif texnika sahiblərinin başlıca vəzifəsidir. Bu vəzifənin yerinə yetirilməsi isə yetişdirdiyimiz məhsulun vaxtlı-vaxtında tədarük edilməsi və iqtisadiyyatımızın gücləndirilməsi deməkdir.

Hər il Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və nazirliyin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin şəhər, rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələri tərəfindən muxtar respublika ərazisində aparılacaq ot-taxıl biçini kampaniyası dövründə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi və biçin zamanı yanğınların baş verməsinin əvvəlcədən qarşısının alınması məqsədilə bir sıra zəruri tədbirlər həyata keçirilir. Belə ki, biçin dövrü ərzində taxıl sahələrində işləyəcək kənd təsərrüfatı texnikalarına baxışlar təşkil olunur, onların sürücüləri və mexanizatorları ilə maarifləndirici söhbətlər aparılır.

Bütün bunlar ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasına istiqamətləndirilmiş tədbirlərdir və hər il onun bəhrələrini görürük.

İllərdir ki, taxıl və ot yığımına başlanmazdan əvvəl ailə təsərrüfatlarının rəhbərləri, biçində iştirak edən hər bir mexanizator, sürücü kənd təsərrüfatı texnikalarını yanğına qarşı hazırlayır, onları texniki müayinədən keçirir, ilkin odsöndürücü vasitələrlə təmin etməyə çalışır, texnikaların yanğın təhlükəsizliyi qaydalarının tələblərinə cavab vermələri müəyyənləşdirildikdən sonra onlar sahəyə buraxılır.

Taxıl biçinində iştirak edən traktor və kombayn sürücülərinin, onların köməkçilərinin, digər mexanizatorların, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxsin yanğına qarşı təlimatlandırılması da mütləq şərtlərdən biridir.

Məhsul yığımında iştirak edən bütün texnikaların mühərriklərinin atqı borularının qığılcımsöndürənlərlə təmin olunmasına diqqət yetirilməlidir. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında şumlama işləri aparılarsa, onda həmin traktorlar da mütləq qığılcımsöndürənlərlə təmin edilməlidir.

Mövsüm dövrü kombaynın kənar şəxs tərəfindən, onun yedəyə alınmaqla və yüksəklikdən buraxılmaqla işə salınması, kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra texnikaların sahələrdə saxlanması, kombaynlarda əlavə yanacaq və yağlama materiallarının saxlanılması yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir. Adıçəkilən bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin olunması üçün hansı işlər görülməlidir? İlk növbədə, meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərtilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən az 30 metr məsafəyə yığılmalıdır.

Taxıl təmizlənən xırmanlarda, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək olmaz. Bunun üçün yaxınlıqda xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmalıdır.

Biçin zamanı baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə kotanlı traktorlar olmalıdır. Taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanması qəti yolverilməzdir. Tarla şəraitində texnikaların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra həyata keçirilməlidir.

Qeyd edək ki, kombaynların diyircəklərinin və digər sürtünən hissələrinin qızmasının qarşısını almaq məqsədilə onların vaxtlı-vaxtında yağlanması və etibarlı bərkidilməsi diqqətdə saxlanılmalı, texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsinin vaxtlı-vaxtında təmizlənməsinə ciddi önəm verilməlidir.

**Oktay RZAYEV**
***Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, dosent***

# IX sinif şagirdləri üçün növbəti buraxılış imtahanı keçirilib



İyunun 3-də Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçirilib. Respublikanın 16 şəhər və rayonunda təşkil olunan imtahanlarda 20 mindən çox şagird iştirak edib. İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə, 98 imtahan binası, 1605 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 98 ümumi imtahan rəhbəri, 267 imtahan rəhbəri, 1945 nəzarətçi-müəllim, 196 buraxılış rejimi əməkdaşı (mühafizə), 98 bina nümayəndəsi ayrılıb.

Naxçıvan Muxtar Respublikasında keçirilən imtahanlarda, ümumilikdə, 3888 abituriyent iştirak edib. İmtahanın idarə olunması üçün 329 zal, 52 rəhbər, 395 nəzarətçi ayrılıb. Abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

İmtahan nəticələri yaxın günlərdə elan ediləcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi açıq tenderə dəvət edir

Tender 2 lot üzrə keçirilir:

***Lot 1*** – yaz-yay mövsümü üçün müxtəlif növ əşya əmlaklarının satın alınması

***Lot 2*** – hərbi ayaqqabıların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, bina 41 ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyindən (əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu, tel: 544-48-34) ala bilərlər.

***Hesab: AZ21 NABZ12360100000000005944***

***VÖEN: 0200312291***

***Bank: Mərkəzi Bank Naxçıvan Muxtar Respublikası İdarəsi***

***Kodu: 502906***

***VÖEN:0200087741***

***M/H: AZ 88NABZ01451700000000012944***

***S.W.İ.F.T: NABZAZ2C***

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)*

*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır)*

*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı*

*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*

*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları*

*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 iyun 2021-ci il saat $17^{00}$-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 27 iyun 2021-ci il saat $17^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, bina 41-də yerləşən Fövqəladə Hallar Nazirliyinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 28 iyun 2021-ci il tarixdə saat $11^{00}$-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

**İtmişdir**

Babək rayonunun Şıxmahmud kəndində yaşamış Şükürov Məmməd Müseyib oğlunun adına olan JN-62A inventar nömrəli, 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Hüseynov Vətən İmaməli oğlunun adına olan avtomobilin 75-BB-322 nömrəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Ramazanov Xəlil Kazım oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 445